# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

Bakı şəhəri, 30 iyun 2010-cu il

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDUNUN

**elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə**

**2010-cu il üçün 1-ci MÜSABİQƏSİ (EİF-2010-1) haqqında**

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) Azərbaycan Respublikasında təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli elmi-tədqiqat proqlamları və layihələrini və digər elmi tədbirləri (bundan sonra - layihələr) dəstəkləmək, aktual və müasir elmi problemlərin həlli ilə məşğul olan fiziki şəxslərin, bir elmi mövzu (problem) ətrafında müvəqqəti yaradılmış yaradıcı kollektivlərin, akademik və təhsil sistemlərində fəaliyyət göstərən elmi və digər qurumların (dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və s.) elmi fəaliyyətini stimullaşdırmaq və onlara əlavə yaradıcılıq imkanı yaratmaq məqsədilə cari ilin elmi prioritetlərinə uyğun olaraq, qrantların verilməsi üzrə 2010-cu il üçün 1-ci müsabiqəsini (EİF-2010-1)

ELAN EDİR:

1. Əhəmiyyətli və qısa zamanda dönüş yarada biləcək elmi-texniki nəticələr alınması məqsədilə *elmin ayrıca götürülmüş sahəsinin inkişafına böyük həcmli qrantın verilməsi* yolu ilə *pilot layihəsinin* maliyyələşdirilməsi:

2010-cu il üçün: **Təşkilat tərəfindən verilən layihə**

Layihənin maliyyələşdirilmə həcmi: 3 000 000 AZN-dək

2. Fizika-riyaziyyat və texnika elmləri, Yer haqqında elmlər, biologiya, tibb və aqrar elmləri, kimya elmləri, humanitar və ictimai elmlər sahələrini əhatə edən və 2010-cu il üçün seçilmiş aşağıdakı:

- Yanacaq-energetika kompleksi, alternativ və bərpa olunan enerji mənbələri;
- Təbii ehtiyatların səmərəli istifadəsi və kompleks emalı;
- Həyat haqqında elmlər: bioinformatika, biomüxtəlifliyin qorunması, tibbin müasir problemləri;
- Nanostrukturlar, nanotexnologiyalar və yeni konstruktiv materiallar;
- Riyaziyyat, informasiya-kommunikasiya sistemləri və texnologiyaları, süni intellekt sistemləri;
- Fizika və astronomiyanın fundamental problemləri;
- Geoelmlər və hidrologiya;
- Təhlükəsizlik və risk faktorları;
- Azərbaycan humanitar fikri müstəqil dövlətçilik işığında və Azərbaycançılıq ideologiyası

elmi prioritetlər üzrə **fundamental və tətbiqi xarakterli** layihələrin *kiçik (10 000 AZN-dək), orta (10 000 AZN-dən – 100 000 AZN-dək) və böyük (100 000 AZN-dən yuxarı) həcmli* qrant vasitəsilə maliyyələşdirilməsi

Layihələrin maliyyələşdirilmə həcmi: 2 200 000 AZN-dək

3. Cəmiyyətin sosial-mənəvi inkişafına xidmət edən, humanitar və ictimai elmlər sahəsində yerinə yetirilən elmi-tədqiqat işləri üzrə layihələrin məqsədli qrant vasitəsilə maliyyələşdirilməsi:

2010-cu il üçün: **Azərbaycanın qeyri-maddi mədəni irsinin elmi tədqiqi** layihəsi

Bu tip layihələrin müsabiqə yolu ilə maliyyələşdirilməsində məqsəd Azərbaycanın qədim və rəngarəng qeyri-maddi mədəni irsinin - xalq musiqisi, ifaçıları və kollektivləri, muğam, aşıq sənəti, tar və kamança ifaçılığı, folklor, sənətkarlıq, milli diyarşünaslığın, xalq rəqsləri və oyunları, xalq teatrı, təbiət və kainatla bağlı adət-ənənə, mərasim və bayramların, şifahi xalq yaradıcılığı, xalq tətbiqi, dekorativ və təsviri sənətlərinin və b. elmi əsaslarla dərindən tədqiq olunmasının dəstəklənməsidir.

Layihələrin maliyyələşdirilmə həcmi: 400 000 AZN-dək

4. Aşağıdakı xüsusi layihələrin qrant vasitəsilə maliyyələşdirilməsi:

- elmi-tədqiqatların müasir tələblərə cavab verən maddi-texniki təminatı;
- ölkənin sosial-mənəvi, elmi-texniki və iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edən respublika, regional və beynəlxalq səviyyəli konfrans, simpozium, seminar və başqa elmi tədbirlərin Azərbaycan Respublikasında təşkili və keçirilməsi;
- Azərbaycan alimlərinin və mütəxəssislərinin xaricdə keçirilən nüfuzlu regional və beynəlxalq elmi tədbirlərdə (plenar, xüsusi dəvətli və dəvətli şifahi məruzəçilər qismində) iştirakının qismən və ya tam şəkildə maliyyələşdirilməklə təmin edilməsi;

- Azərbaycanda elmin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən elmi əsərlərin (monoqrafiya, atlasların, sifarişli əsasda yazılmış elmi və analitik icmalların, həmçinin elmin tədrisi ilə bağlı və elmi-kütləvi xarakterli əsərlərin) nəşrinin dəstəklənməsi;
- çeviklik tələb edən xüsusi elmi ekspedisiya və çöl işlərinin təşkili;
- xüsusilə vacib hallarda (yeni metodun və cihazın öyrənilməsi və s.), qısa müddətli (bir ayadək) təcrübəkeçmə proqramlarının həyata keçirilməsi;
- Azərbaycanda elmin inkişafına, tədrisinə və təbliğinə yönəldilmiş digər tədbirlərin layihələr şəklində dəstəklənməsi.

Layihələrin maliyyələşdirilmə həcmi: 400 000 AZN-dək

5. **Axtarış – innovasiya yönlü** layihələrin qrant vasitəsilə maliyyələşdirilməsi

Layihələrin maliyyələşdirilmə həcmi: 100 000 AZN-dək

**2010-cu il üçün qrant maliyyələşdirilməsinin cəmi həcmi: 6 100 000 AZN**

Müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materiallar 1 iyul 2010-cu il tarixindən başlayaraq qəbul olunur.

Müsabiqədə iştirak etmək üçün ərizələrin, ərizəyə əlavə olunan müvafiq sənədlərin və digər müşayiətedici materialların qəbulu üçün son tarix 15 sentyabr 2010-cu il saat 17:00-dır.

Elmin İnkişafı Fondu tərəfindən qrantların verilməsi üzrə 2010-cu il üçün 1-ci müsabiqənin (EİF-2010-1) nəticələri Elmin İnkişafı Fondu tərəfindən qrantların verilməsi üzrə 2010-cu il üçün 2-ci müsabiqənin (EİF-2010-2) elanı vaxtı və ya ondan əvvəl açıqlanacaqdır.

Müsabiqədə alimlər, mütəxəssislər və digər fiziki şəxslər (fərdi qaydada), qurumlar və elmi yaradıcı kollektivlər (alimlərin, mütəxəssislərin və ya qurumların iştirakı ilə müvəqqəti olaraq təşkil olunmuş) iştirak edə bilərlər.

Hər üç halda müsabiqəyə təqdim edilən layihə həmin layihə üzrə rəhbərlə təmsil olunmalıdır (fiziki şəxs tərəfindən təqdim edilən layihə üzrə həmin şəxs layihə rəhbəri qismində çıxış edir).

Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün ərizələr, ərizəyə əlavə olunan müvafiq sənədlər və digər müşayiətedici materialların verilməsi və qeydiyyatı qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2010-cu il 25 iyun tarixli Q-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları"nda (http://elmfondu.az/qrant/qaydalar) tanış olmaq olar.

Müsabiqədə iştirak etmək istəyən şəxslərə "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları" ilə tam tanış olduqdan sonra müvafiq ərizə və sənədləri tərtib etmələri tövsiyə olunur.

Qrantların verilməsi üzrə müsabiqədə iştirak etmək üçün ərizə və müvafiq sənədlər (Microsoft Word formatında) Elmin İnkişafı Fondunun internet saytının (http://elmfondu.az/qrant/senedler) "Qrant müsabiqələri" bölməsindən əldə edilə bilər.

Bütün layihələr, bir qayda olaraq, Azərbaycan və ingilis (zəruri hallarda xarici ekspertlərdən rəy alınması üçün) dillərində tərtib edilməlidir. Kiçik həcmli qrantlar üzrə ərizə və sənədlər Azərbaycan-ingilis və ya Azərbaycan-rus dillərində doldurula bilər.

Layihələr üç formatda (kağız üzərində, elektron məlumatdaşıyıcılarına yazılmış şəkildə və elektron variantın elektron ünvana göndərilə bilməsi üçün elektron fayllar şəklində) aşağıdakı üsullarla təqdim olunmalıdır:

1. layihə rəhbəri tərəfindən imzalanmış müsabiqədə iştirak etmək üçün ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların A4 formatlı ağ kağızda iki nüsxədə çap olunmuş variantını və elektron məlumatdaşıyıcılarına (CD, DVD və s.) yazılmış versiyasını birlikdə:

- Elmin İnkişafı Fondunun icraçı direksiyasının ünvanına (**AZ-1069, Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti, 48B)** (sifarişli üsulla) poçt vasitəsilə göndərmək yolu ilə:
- və ya Elmin İnkişafı Fondunun icraçı direksiyasının yuxarıda göstərilən ünvanda yerləşən **ofisindəki xüsusi poçt qutusuna** həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10.00-dan 17.00-dək birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə (elektron-poçt göndərişi zamanı mümkün itmələrdən və adi poçt daşınması zamanı təsadüfi mexaniki zədələrdən yayınmaq üçün);

2. Layihə rəhbəri tərəfindən imzalanmış müsabiqədə iştirak etmək üçün ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantını (Microsoft Word formatında elektron fayllarını) Elmin İnkişafı Fondunun **elektron-poçt ünvanına** (qrant@elmfondu.az) göndərmək yolu ilə (bu zaman elektron məktubun "mövzu" ("subject") hissəsində aşağıdakı yazılışdan istifadə olunmalıdır: "EİF-2010-1 - *Layihə rəhbərinin soyadı və adı* - *Elm sahəsinin adı*").

Ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantının kağızda olan variantına tam uyğun olmasına məsuliyyəti layihə rəhbəri daşıyır.

Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsinə təqdim edilmir və geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta sənəd və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.

Elmin İnkişafı Fondu eyni zamanda, şəffaflığı və bərabərliyi təmin etmək məqsədilə təqdim olunmuş və texniki ekspertizadan keçmiş bütün layihələrin müvafiq qaydada açıqlana biləcək hissəsinin internet səhifəsi vasitəsilə forum xarakterli ictimai-elmi müzakirəsini və ekspert rəylərinin müvafiq hissəsinin internet səhifədə yerləşdirilməsi işini də təşkil edəcəkdir. Bu tipli müzakirə təqdim olunmuş layihə texniki ekspertizadan keçdikdən sonra başlanacaq və elmi ekspertiza bitənədək olan müddət ərzində həyata keçiriləcəkdir.

Elmin İnkişafı Fondu müsabiqədə iştirak etmək üçün ərizənin və ərizəyə əlavə olunan sənədlərin düzgün doldurulması prosesini asanlaşdırmaq və effektivliyini artırmaq üçün və bu elana uyğun olaraq ərizələrin qəbulu üçün nəzərdə tutulmuş dövr ərzində müsabiqədə iştirak etmək istəyən şəxslərə kömək məqsədilə 2010-cu ilin iyul, avqust və sentyabr aylarında məsləhət saatları və seminarlarının keçirilməsini nəzərdə tutur. Bu haqda əlavə məlumat Elmin İnkişafı Fondunun internet səhifəsində veriləcəkdir.

Müsabiqədə iştirak etmək üçün ərizələrin və ərizəyə əlavə edilən müvafiq sənədlərin, "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları"nın əldə olunması ilə bağlı problemlər yarandığı təqdirdə Elmin İnkişafı Fondunun icraçı direksiyasının ofisi (AZ-1069, Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti, 48B) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur. Əlaqə telefonu: 012-563-61-11, elektron poçt ünvanı: qrant@elmfondu.az

**Elmin İnkişafı Fondunun icraçı direksiyası**